# VİLAYƏT QULİYEV: ƏN CƏSARƏTLİ XƏYALLARIMDA BELƏ TƏSƏVVÜRÜMƏ GƏTİRƏ BİLMİRDİM Kİ, XANKƏNDİDƏ AZƏRBAYCAN BAYRAĞI DALĞALANACAQ

***Azərbaycanın Bosniya və Herseqovinadakı səfiri Vilayət Quliyev Ümummilli Lider Heydər Əliyevlə bağlı xatirələri, "Heydər Əliyev İli" çərçivəsində görülən işlər, Azərbaycan-Bosniya və Herseqovina münasibətlərinin perspektivləri barədə AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.***

***- Vilayət müəllim, Azərbaycan xalqı bu il Ulu Öndərinin, fenomenal şəxsiyyət Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. "Heydər Əliyev İli" çərçivəsində görülən işlər barədə nə deyə bilərsiniz?***

- Xalqımız "Heydər Əliyev İli"ni böyük şərəflə başa vurur. Lakin sonrakı illərdə də Ulu Öndərin əziz xatirəsi dərin ehtiramla anılacaq. Azərbaycan var olduqca, Ümummilli Lider Heydər Əliyevin xatirəsi hər zaman böyük sevgi ilə yad ediləcək.

Nə yaxşı ki, "Heydər Əliyev İli"ndə Azərbaycan 30 ildən bəri davam edən ağır bir prosesə də son qoydu, bütün əraziləri üzərində özünün müstəqilliyini və suverenliyini bərpa etdi. Nə yaxşı ki, bu, "Heydər Əliyev İli"nə təsadüf etdi.

Mən 1999-2003-cü illərdə Heydər Əliyev ilə birgə işləmək səadətinə nail olmuşam. Gündəlik müşahidələrimdə görürdüm ki, keçmiş Dağlıq Qarabağ mövzusu Heydər Əliyev üçün nə qədər ağır və əzablı düşüncələrə səbəb olurdu. O, Qarabağ itkisini, deyərdim ki, fiziki ağrı kimi yaşayırdı. Harada olsa, haraya getsə həmişə bu münaqişənin hansı yolla aradan qaldırılması, işğal altındakı torpaqların necə azad edilməsi haqqında düşünürdü. Bütün görüşlərdəki danışıqlarının əsas mövzusu məhz bu məsələ idi. Nə yaxşı ki, keçmiş Dağlı Qarabağ münaqişəsi öz qəti həllini bu il - Heydər Əliyevin anım ilində tapdı. İnanıram ki, Heydər Əliyevin ruhu indi şaddır.

Etiraf etməliyəm, bir neçə il öncə mən fikirləşirdim ki, qarşıdan Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi yaxınlaşır. Bu 100 illiyə bizim töhfəmiz nə olacaq? Şübhəsiz ən böyük töhfə işğal altındakı torpaqlarımızın azad olunması idi. Mən ən cəsarətli xəyallarımda belə bugünkü mənzərəni təsəvvürümə gətirə bilmirdim ki, işğal altında olmuş bütün ərazilərimizdə, o cümlədən Xankəndidə Azərbaycan Bayrağı ucaldılacaq, dalğalanacaq, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Xankəndidə hərbi paradı qəbul edəcək.

Əslində bu Qələbənin kökləri də məhz Heydər Əliyevin böyük fəaliyyətinə - onun 1993-cü ildə ölkəni xaosdan qurtarmasına, Azərbaycan dövlətçiliyini möhkəm təməllər üzərində qurmasına, ordu quruculuğu sahəsində əldə olunmuş nailiyyətlərə və bütün bu proseslərin Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük uğurla davam etdirilməsinə əsaslanır. Nəticədə isə Azərbaycan xalqı bütün dünyaya sübut etdi ki, öz tarixi torpaqlarının sahibidir və bu torpaqların bir qarışını da heç kəsə güzəştə getmək fikrində deyil.

***- Azərbaycanın xarici işlər naziri kimi siz Ulu Öndər Heydər Əliyevlə müxtəlif səfərlərdə, görüşlərdə iştirak etmisiniz. Yəqin ki, xatirələriniz də kifayət qədərdir. Ümummilli Liderlə bağlı ən yaddaqalan xatirəniz hansıdır?***

- Heydər Əliyevlə bağlı bir xatirəmi məmnunluqla bölüşmək istəyirəm. Azərbaycan Avropa Şurası üzvlüyünə qəbul olunan zaman, Şuranın xahişi ilə Strasburqda Azərbaycan və Ermənistan prezidentləri arasında görüş keçirildi. Əslində bu, formal xarakterli görüş idi. Çünki görüşün heç bir real nəticəsi olmadı. Sadəcə Avropa Şurası nümayiş etdirmək istəyirdi ki, o da münaqişənin həllinə öz töhfəsini vermək istəyir.

Amma görüşün sonunda maraqlı bir epizod yaşandı. Binanı əvvəlcə ermənilər, sonra isə biz tərk etməli idik. Biz öz növbəmizi gözləyirdik ki, avtomobillər ayrılsın. Bu zaman erməni nümayəndə heyəti artıq binadan çıxırdı. Köçəryan vidalaşmaq üçün Heydər Əliyevə yaxınlaşdı. Heydər Əliyev "bir dəqiqə", - deyə onu saxladı və dedi: "Mən çoxdan bunu soruşmaq istəyirdim, indi fürsət yarandı. Vaqifin Şuşadakı məqbərəsinin vəziyyəti necədir?".

Xatırlayaq ki, bu məqbərə Ulu Öndərin təşəbbüsü ilə ucaldılıb. O, təkcə ədəbi tarixi deyil, həm də siyasi əhəmiyyəti ilə önəm daşıyır.

Köçəryan özünü sadəlövh bir görkəmə salaraq dedi: "Bizim başımız ayılana qədər məqbərəni dağıtdılar. Mərmər üzlükləri qopardılar, alüminium şəbəkələri apardılar. Amma sütunları qalır".

Heydər Əliyev çox incə bir istehza ilə gülümsəyərək dedi: "Əminəm ki, sənin özün bu işə əl bulamamısan".

Köçəryan özünü itirərək, "Nə danışırsınız, Heydər Əliyeviç?", - dedi. Sonra tez bizim yanımızdan uzaqlaşdı.

O uzaqlaşdıqdan sonra Heydər Əliyev üzünü bizə çevirərək dedi: "Hamısının başında özü dayanır. Quldurbaşının böyüyü özüdür. Amma eybi yox. Biz günün birində yenidən Şuşaya da qayıdacağıq, o məqbərəni əvvəlkindən də yaxşı bərpa edəcəyik, Azərbaycan insanı yenə də əvvəlki kimi Şuşanın ziyarətə gedəcək".

Tale nəsib etdi və biz bu günləri gördük. Bizi bu Zəfərə aparan yolun başlanğıcında, bünövrəsində Heydər Əliyevin işıqlı şəxsiyyəti, böyük dövlətçilik təcrübəsi, əzmi, iradəsi, Azərbaycan insanının, xalqının gələcəyinə olan böyük ümidi və inamı dayanır.

***- Cənab səfir, "Heydər Əliyev İli" Azərbaycanda, eləcə də xarici ölkələrdə böyük çoşqu və ehtiramla qeyd olundu. Bu barədə nə deyə bilərsiniz?***

- Prezident İlham Əliyevin Sərəncamı ilə 2023-cü il Azərbaycanda "Heydər Əliyev İli" elan edildi. İl ərzində Heydər Əliyev irsini istər Azərbaycanda, istərsə də ölkəmizin hüdudlarından kənarda tanıtmaq və xatirəsini yad etmək üçün çoxsaylı tədbirlər keçirildi. Heydər Əliyevi tanıtmaq, həm də Azərbaycanı tanıtmaq deməkdir. Çünki Azərbaycanın müasir tarixinin son 50 ildəki dövrü Ümummilli Lider Heydər Əliyevin adı, fəaliyyəti, şəxsiyyəti, gördüyü böyük işlərlə bağlıdır.



Azərbaycanın Bosniya və Herseqovinadakı səfirliyi də bu ümumxalq prosesində yaxından iştirak etdi. Bu il mayın 10-da - Ulu Öndərin doğum günündə səfirliyin həyətində Heydər Əliyevin büstü ucaldıldı, onun haqqında Bosniya mətbuatında çoxsaylı məqalələr dərc olundu, bosniyalı tarixçi Admir Lisitsanın Ümummilli Liderin həyat yolundan bəhs edən kitabı işıq üzü gördü və nəşrin geniş təqdimat mərasimi keçirildi. Ötən günlərdə isə AZƏRTAC-ın təşəbbüsü ilə səfirliyin binasında Ulu Öndər Heydər Əliyevin ömür yolunu əks etdirən maraqlı fotoşəkillərdən ibarət sərgi təşkil edildi. Sərgidə Heydər Əliyevin Azərbaycan SSRİ-yə, həm də müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrlərdə çəkilmiş fotoşəkilləri nümayiş olunurdu. Bu fotoşəkillər sayəsində biz Heydər Əliyevin yorulmaz fəaliyyətinə və gördüyü misilsiz işlərə, onun ölkəmizin mənafeyini müdafiə etmək üçün beynəlxalq tribunalardakı çıxışlarına və sadə insanlarla münasibətlərinə, Azərbaycan naminə atdığı cəsur addımlara bir daha şahidlik etdik.

Hesab edirəm ki, "Heydər Əliyev İli" uğurla başa çatır. Biz Heydər Əliyev şəxsiyyəti prizmasından çıxış edərək il ərzində Azərbaycan həqiqətlərini dünya miqyasında yaymaq üçün böyük işlər görməyə imkan tapdıq.

***- Vilayət müəllim, bu ilin aprelində Azərbaycan Prezidenti İlham Əliyev Bosniya və Herseqovinaya rəsmi səfər etdi. Səfərin əhəmiyyəti, Azərbaycan ilə Bosniya və Herseqovina arasındakı münasibətlər və əməkdaşlığın hazırki vəziyyəti barədə nə deyərdiniz?***

- Bosniya və Herseqovina ilə Azərbaycan arasında məsafə min kilometrlərlə ölçülsə də, xalqlarımız arasında tarixi yaxınlıq - bir tale yaxınlığı var. Hətta boşnak tarixçilərindən biri mənə demişdi ki, Bosniya və Herseqovinada etnik azərbaycanlılar yaşayırlar. Onlar XVI-XVII əsrlərdə Azərbaycanın Naxçıvan bölgəsindən buraya köçürülmüş əhalidir. Bu insanlar təbii ki, zaman keçdikcə dillərini itirsələr də, etnik özünəməxsusluqlarını qoruyub saxlayırlar.

Müstəqillik yollarında da ölkələrimizin tarixi taleyi oxşardır. Həm Bosniya və Herseqovina, həm də Azərbaycan ədalətsiz müharibələrlə üzləşib. Yaxşı ki, bu acı tarix artıq geridə qalıb.

Türkiyə ilə yanaşı, Azərbaycan da boşnaklar arasında çox populyar ölkədir. Bizim ölkəmizə bir nümunə, ümid yeri kimi baxırlar.

Cari ilin aprel ayında Azərbaycan Prezidenti İlham Əliyevin Bosniya və Herseqovinaya tarixi rəsmi səfəri ölkə ictimaiyyəti, dövlət qurumları tərəfindən böyük məmnunluq hissi ilə qarşılandı. Səfər çərçivəsində Azərbaycan ilə Bosniya və Herseqovina arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalandı. Əməkdaşlığın yolları və istiqamətləri barədə geniş fikir mübadiləsi aparıldı.

Azərbaycan bir daha Bosniya və Herseqovinaya hərtərəfli yardım göstərməyə hazır olduğunu bəyan etdi. Yeri gəlmişkən, bu yaxınlarda Bosniya və Herseqovinanın xarici işlər naziri COVID dönəmində ölkəyə yardım göstərən dövlətlərin siyahısını paylaşmışdı. Bir azərbaycanlı və Azərbaycanın Bosniya və Herseqovinadakı səfiri kimi böyük məmnuniyyətlə qeyd edirəm ki, siyahıda birinci sırada Azərbaycanın adı var idi. Çünki Azərbaycan həm daşqınlar zamanı, həm də COVID pandemiyası dövründə Bosniya və Herseqovinaya ən çox əməli yardım göstərən ölkələrdən biri olub.

Ölkələrimiz arasındakı əlaqələrin geniş perspektivləri var. Artıq bu istiqamətdə müəyyən işlər görülür. Ümidvaram ki, növbəti il ərzində Azərbaycanda Bosniya və Herseqovinanın səfirliyi fəaliyyətə başlayacaq. Eyni zamanda, iki ölkə arasında birgə iqtisadi əməkdaşlıq komissiyasının yaradılması nəzərdə tutulur.

Son dövrlərdə Bosniya və Herseqovina rəsmilərinin ölkəmizə səfərləri də artıb. Artıq bu səfərlərin bəhrələri üzərində düşünmək lazımdır. Bu da kənd təsərrüfatı, iqtisadiyyat, sənaye, turizm, tələbə mübadiləsi sahələrindəki əməkdaşlıqdır. Bosniya və Herseqovina tərəfi bu əməkdaşlığa böyük maraq göstərir, Azərbaycan da eyni münasibəti bəsləyir. İnanıram ki, yaxın vaxtlarda biz bu əməkdaşlığın konkret təzahür formaları ilə tanış olmaq imkanı əldə edəcəyik.

***- Cənab səfir, müsahibə üçün vaxt ayırdığınıza görə təşəkkür edirik.***

***Nihad Budaqov***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Sarayevo***

---

# SEYİD VƏ FATİMƏ



***Salman Məmmədoğlu***

**ROMAN**
***I hissə***

**III FƏSİL**

***SİRLİ ADAYA BİRİNCİ SƏYAHƏT***

Ucu-bucağı görünməyən qamış, dala və digər su bitkiləri ilə əhatə olunmuş hövzədə çoxlu heyvan və quşlar yaşayıb qidalanırdı. Seyid qazılan yuvalara görə, vəhşi heyvanların böyük və ya kiçik olması haqqında müəyyən təsəvvürlərə malik olmuşdu, quş və heyvanların artıb çoxalması üçün çoxlu yem ehtiyatları vardı. Göllərdə illərlə artıb çoxalan iri balıqların hərəkəti aydın görünürdü. Bu hövzəni səyahət etmək üçün Seyid buraya bir qayıq gətirmiş, möhkəm bir payaya bağlamışdı. O, bu qayıqda hövzənin dərinliklərinə qədər gedib çıxır, suda üzən balıqlara tamaşa edir, müxtəlif növlü quşların pırıltı ilə uçub uzaqlaşmasından, bir sözlə, buradakı ekzotik mənzərələrdən həzz alırdı. Belə vaxtlarda atını hündür təpələrdən birində hörükləyirdi ki, həm onu görə bilsin, həm də geriyə qayıtmaq üçün düzgün istiqaməti tapa bilsin. Gölün dənizə yaxın hissəsində qamış və su bitkilərinin əhatəsində olan bir cığır bataqlıq və su hövzəsinin içərilərinə tərəf uzanıb gedir, Seyidin maraq və diqqətini daha çox cəlb edirdi. Bir neçə dəfə bu yolla səfərə çıxsa da, tez də geri dönmüşdü. Nəhayət, növbəti səfər zamanı çox uzaqlara getmiş, daha çoxlu müşahidələr aparmış və geniş məlumatlar toplamışdı; qarşısında açılan möcüzəli mənzərələrdən keçib dəniz kimi dalğalanan böyük bir gölün qarşısında dayanmışdı. O tərəflərə ancaq qayıqla hərəkət etmək olardı, elə buna görə də geri qayıtmalı oldu, yeganə torpaq cığırla geriyə hərəkət etməyə başladı. Sahilə az qalmış biri-birinin ardınca beş-altı qaban balasının yoluna çıxdığını gördü. O, vəhşi qabanların bu yerlərdə çox olduğunu, onların əsasən dəniz və meşələrdən gəldiyini müşahidə etmişdi. Cəngəllik meşələrdə, qamış və münbit su hövzələrində yem ehtiyatlarının çoxluğu bu heyvanların çoxalmasına şərait yaratmışdı. Balalar onu gördükdə narahat olsalar da, qaçıb gizlənmədilər, bir qədər sonra yenə balaca burunlarını suya salıb vurnuxmağa başladılar. Seyid isə çox narahat idi, ana qaban və ya vəhşi qaban sürüsü hər an qayıda və onu yaxalaya bilərdi. O, vaxt itirmədən sahilə tərəf hərəkət etməyə başladı, xəfif külək qamış və digər bitkiləri tərpədərək hər hansı bir səsi və ya hənirtini eşitməyə mane olduğundan Seyidi daha ehtiyatlı davranmağa, nizəsindən möhkəm yapışmağa vadar edirdi. Üstəlik atının kişnəməsi də sahibinə bir xəbərdarlıq kimi səslənirdi. Çünki o, əbəs yerə kişnəməz, yalnız təhlükə zamanı sahibinə yetişməyə çalışardı. Birdən-birə qarşısında peyda olan yekə vəhşi qabanı görəndə Seyid atının nahaq yerə kişnəmədiyinin səbəbini anladı. İndi o, bağlandığından sahibinə kömək edə bilmir, atılıb-düşürdü. Seyud özünü itirmədi, özünü sahilə çaldırmaq üçün çıxış yolu axtarır, qabanın hərəkətlərini diqqətlə izləyirdi. Qabanın ağzından bayıra çıxmış yekə, xəncər kimi iti dişləri, nəhəng qara tüklü bədəni vardı. Qaban əvvəlcə sakitcə, sonra qəzəblə yeri eşərək yoluna çıxan düşməninə baxırdı. Seyid heyvana xətər yetirməmək üçün bütün vasitələrdən istifadə etmək fikrində idi. Əvvəla, qaban ətindən heç vaxt istifadə etməmişdi, həm də müsəlmanlıqda qadağan olunmuş, haram hesab edilirdi. Digər tərəfdən, bu heyvanın balaları var, onu öldürmək, təbiəti bu varlıqdan məhrum etmək özü də böyük günah olardı. Amma qaban gözlənilmədən hücum etdi, bəlkə də düşməninin əlindəki silahından qorxaraq onu qabaqladı. Artıq müdafiə olunmaq lazım idi, dəfələrlə çətin şəraitdə vəhşi heyvanlarla üz-üzə qalmaq Seyidə çox şeylər öyrətmişdi. Atası ilə müxtəlif ov heyvanlarının hərəkət və xüsusiyyətlərini diqqətlə izlədiyindən burada da özünü itirmədi, qaban ona yetişəndə cəld kənara sıçrayıb sahilə tərəf qaçmağa başladı. Vəhşi heyvanın ayaq səsləri, hirsli fınxırtısını eşidib geri çevrildi: qaban sürətlə onun arxasınca gəlirdi. Seyid dayanıb onun hücumunu, qayıtmasını gözlədi, ondan əl çəkmək istəməyən heyvanı dəf edib sahilə çatdı, atını hörüklədiyi təpəyə qalxıb belinə əyləşdi. Seyidin ehtiyatlı tərpənişi əbəs deyilmiş: bir azdan qamışların içi ilə qaçışan qaban sürüsünün vahiməli xorultusu eşidilməyə başladı. Seyid vaxtında təhlükədən yaxa qurtara bilmişdi, həm də ana təbiətin yaratdığı varlığa ziyan yetirmədiyi üçün çox sevinirdi. Vəhşi qabanın balaları və yaşadığı ərazi uğrunda fədakarcasına və axıradək mübarizə aparması da tədqirəlayiq və ibrətamiz bər səhnə kimi onun yaddaşına həkk olundu...

Seyid qayıqla hərəkət edərkən, bəzən avarın suya deyil, hərəkətdə olan balıq sürüsünə toxunduğunu aydın görə bilirdi, illərlə ovlanmadığından müxtəlif balıq növləri isti günəş şüaları altında qızınır, onların çoxluğu suyun hər qarışında olması Seyidi heyrətə salırdı. Kütüm, ala-balıq, çapaq və s. hərəsinin öz dadı, ləzzəti var. Suyun altında balıqların qidalanması üçün o qədər təbii yem ehtiyatı




var ki, sahilə yaxın və dayaz yerlərdə cayır otu, qamışların köklərində olan qidalar, yosun və çoxlu su bitkiləri balıqların təbii qida anbarı, həyat mənbəyidir. Suyun çox da dərin olmayan yerlərində Seyid istədiyi balığı əlilə rahatca tuta bilir, qarnında kürü olan balıqları isə yenidən suya buraxırdı.

Seyidin müşahidələrindən məlum olmuşdu ki, dəniz sahilindən bir qədər uzaqda - təqribən bir mil yarımlıq məsafədə ada yerləşir. Bu adaya heç bir yol yoxdur, hər tərəfi su ilə əhatə olunmuşdur. Adaya qədər olan məsafəni qalın qamış, dala, lığ və s. bitkilərin arasından keçib getmək lazım idi. Üstəlik, bu adada insanların yaşayıb - yaşamadıqları barədə də heç bir məlumatı yox idi. Seyid isə çayın dənizə ən yaxın hissəsində - istiqamətini dəyişərək axdığı yerdən hərəkət etməli idi. Dəfələrlə, sahilboyu hərəkət edərək ən yaxın məsafəni, oraya qədər ərazidə baş verə biləcək hadisələri və bu hadisələrlə qarşılaşarsa, nə edəcəyi barədə düşünürdü. Əvvəla, havanın küləksiz, tam sakit saatlarında hərəkətə başlamaq, adaya yetişmək üçün sürətlə hərəkət etmək lazımdır, çünki qəfil külək əsərsə, xırda bir dalğa qayığı dərhal çevirə bilər, qamışların arasında yolu azmaq, irəli və geriyə istiqamətləri təyin etmək olduqca müşkül məsələ olardı.

Seyid ağıllı və tədbirli insan idi, heç bir səbəb olmadan həyatını təhlükəyə atmağın onun üçün heç bir mənası yox idi. Hələlik bütün gedişləri ölçüb-biçmək, dəqiq hərəkət planını hazırlayandan sonra qəti qərara gəlməli idi. İlk növbədə, qayığı buraya gətirmək, yaxşıca gizlətmək lazım idi ki, oğurlamasınlar, hərçənd hələ ki, insanların buralarda olmasına aid heç bir əsər-əlamətə rast gəlməmişdi.

Səhərin gözü açılar-açılmaz Seyid yatağından qalxdı, komasında olan heyvan və quşları yemlədikdən sonra atına minib yola düşdü. İndi o, adaya səfər etməyə tam hazır idi, bir neçə gün əvvəl qayırdığı kiçik qayğı dəniz sahilinə gətirib kolluqların arasında gizlətmişdi. Dənizə qədər olan məsafəni su yolu ilə hərəkət etsə də, bir neçə yerdə qayığı dartmalı olmuşdu, kəndiri atına bağlamış, çox da əziyyət çəkməmişdi. Seyid qayığı gizlətdiyi yerdən itələyib suya saldı, nizə, kaman və oxlarını qayığa qoydu, uzun və möhkəm avarını işə salmazdan əvvəl atını tumarlayıb, "darıxma, tez qayıdacağam, məni gözlə" - dedi. Heyvan başını tərpədib sahibinə sanki "gözləyəcəyəm" - deyirdi.

Seyid təkan verib sahildən uzaqlaşmağa başladı, üfüqdə parlamaqda olan günəş qıpqırmızı rəngə çalır, qızılı şəfəqləri səhərin ilıq nəfəsini yavaş-yavaş qızdırmağa, həyatı canlandırmağa başlamışdı. Dənizin üzü güzgü kimi təmiz və sakit idi, bu sakitliyi yalnız qağayıların səs-küyü, bir də yuvalarından uçan quşların pırıltısı pozurdu. Seyid ilk dəfə idi ki, dəniz səyahətinə çıxırdı, baxmayaraq ki, dəniz səyyahları və onların başına gələn əhvalatlar haqqında çoxlu kitablar oxumuşdu. Dala və qamışların arasından keçib təmiz sulara çıxana qədər bir az əziyyət çəksə də, burada gördükləri onu heyrətə salmışdı; qalın su bitkilərinin üstündə müxtəlif quş yuvaları, bu yuvalarda yumurtaların üstündə müxtəlif rənglərə çalan quşlar, dumduru sularda hərəkət edən balıq sürüləri o qədər çox idi ki, Seyid ömründə heç yerdə bunları görməmişdi...

Adaya yaxınlaşdıqca, Seyid bir qədər həyəcanlanmağa başlamışdı, o, qorxmurdu, ancaq gözlənilməz hadisələrlə üzləşə biləcəyindən ehtiyat edirdi. Burada insan və ya vəhşi heyvanlarla rastlaşmaq mümkündür, elə buna görə də qayığı adanın qamış, dala, lığ basmış sahilinə tərəf sürdü, qayığın burnu sahilə dirəndikdən sonra düşüb onu kənara çəkdi, kəndirlə ağaca möhkəm bağladı. Silahlarını götürüb bir qədər yuxarı qalxıb, ətrafı seyr etməyə başladı. Ayağının altındakı qumlar sarı rəngə çalırdı, kolkoslar, çox da hündür olmayan ağacların arası ilə irəliləməyə başladı. Bir qədər də hərəkət edib hündür bir təpəyə qalxdı: diqqətlə baxıb adanın açıq dənizin içərilərinə qədər uzandığını, yarım mil məsafədə isə qalın və yamyaşıl meşə örtüyünü müəyyən etdi. Adanın eninə olan məsafəsi o qədər də çox deyildi, bəlkə də iki-üç mil olardı. Bundan sonra adanın içərilərinə tərəf hərəkətə başladı.

Seyid insan nəfəsinə tamarzı olan adanın içərilərinə hərəkət etdikcə qarşısında heç yerdə görmədiyi, kimdənsə eşitmədiyi əsrarrəngiz bir aləm açılırdı. Gözünə bir insan görünməsə də, əslində, burada yaşamaq üçün hər cür şərait vardı. Doğrudur, dörd tərəfi su ilə əhatə olunan ada əsasən qumsallıqlardan ibarət idi. Lakin bu, o demək deyildi ki, burada heç bir həyat əlaməti yoxdur. Su hövzələrində müxtəlif növ balıqları asanlıqla əl ilə tutmaq olurdu. Hələ heyvanlar, çöl quşları... yaşayış üçün qida rolunu oynaya bilərdi...

Seyid demək olar ki, hər gün adəti üzrə təbiətin qoynuna tələsir, Allahın bu yerlərə bəxş etdiyi təbii gözəllikləri seyr etməkdən doymurdu. O, artıq təbiətin canlı bir parçasına çevrilmişdi. Sanki təbiət də onsuz darıxırdı. Bir də ki, məskən saldığın bir ərazidə yaşayasan, amma bu ərazinin flora və faunası, torpaq örtüyü, su ehtiyatları, bitki və heyvanat aləmi, təbii sərvətləri barədə məlumatın olmasın, əslində Seyidin tez- tez səfərlərə, səyahətlərə çıxmasının başlıca səbəbi bu yerin coğrafiyasını öyrənmək idi. İndi isə dörd tərəfi su hövzələri ilə əhatə olunan adanın sirli aləmi ilə üz-üzə qalmışdı.

***(Davamı gələn sayımızda)***